

**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# "İŞIQDAN DOĞULMUŞUQ"

## (F.SADIĞIN 90 YAŞINA)

*Vətəndə,*
*qürbətdə,*
*səfərdə*
*həmişə, hər yerdə*
*İşıq axtarır insan,*
*İşıqdan doğulmuşuq,*
*işıqdan.*

**Onun bütün həyatı işıqla, odla bağlı olub. Hələ qəlbində şeir odu şölələnməmiş Naftalanda və Kürdəmirdə işıqçı işləyib. Taleyini sözə, poeziyaya bağlayandan sonra da od, işıq qəlbindən əksilməyib. Şeirlərində yaşadıb, sözünə, misralarına zərrə-zərrə paylayıb onu. Yaradıcılığının yetkin çağlarında "İşığın yaşı" adlı lirik-fəlsəfi poemasını qələmə alıb.**

*Min bir adı var işığın*
*Bir adı da həqiqətdir.*
*Yalan sevməz,*
*Hiylə bilməz.*
*İşıq mərddir!*
*Yaxşı ki,*
*Kainatda işıq var.*

### *Fikrət Sadığın poeziyası*

işıqlı poeziyadır. Bu poeziyada şair qəlbinin hissləri, duyğuları işığın çoxçalarlı rəngləri kimidi. Təbiətin müxtəlif rəngləri, naxışları, göyün, yerin, kainatın sirlərlə dolu gözəllikləri onun poeziyasında işıq kimi gülümsəyir. Bu işıqda həyatın təzadları da əks olunur. O işıq heç vaxt öləziməyib, həmişə sevgi, təbəssüm, inam kimi oxucu ürəyinə səpilib. F.Sadıq yazırdı "... yazılarımın çoxu işıqdan və müharibədəndir. İşıqçı olmuşam, ona görəmi? Müharibənin özünü görməsəm də, ağrısını-acısını dadmışam, ona görəmi? Bu qəbildən olan yazılarım diri xatirələrimdir ki, zaman-zaman oyanıb şeir olur. O illərimin işığı da çilənir həmin şeirlərə. İşıqsız şeir olmaz onsuz da. Füzuli şeiri, Sabir şeiri, Səməd Vurğun və Rəsul Rza şeiri başdan-başa işıq deyilmi? Şeirimiz bu işıqların sayəsində göz açıb dünyaya".

***Ədəbiyyata əllinci illərin sonlarında, universitet tələbəsi olarkən qədəm basıb. İlk xeyirxahı unudulmaz şairimiz Rəsul Rza olub. Rəsul müəllim 1963-cü ildə qələmə aldığı "Ümid və arzular" məqaləsində yazırdı ki: " Fikrət Sadığın ən yaxşı şeirləri ruhən cavan, ehtiraslı, lakin saçına çox tez müdriklik ağı düşmüş adamı xatırladan şeirlərdir".***

Biz-F.Sadıqdan çox-çox sonralar ədəbiyyata gələn nəsil "saçına çox tez müdriklik ağı düşmüş" bu gözəl şairin poeziyasındakı özünəməxsusluğa, ağsaqqallığına çox tez bir zamanda öyrəşdik. Təkcə şeirləri ilə deyil, həm də özüylə dostlaşdıq, onun məzəli-duzlu zarafatları, bədahətən söylədiyi yumorlu şeirləri ilə də dostlaşdıq.

Kitablarının birinə yazdığı müqəddimədə F.Sadıq bədii ədəbiyyata, xüsusilə, poeziyaya münasibətini belə ifadə edir: "Dünənin şeiri, üstəgəl sabahın şeiri, bərabərdir bu günün şeirinə. Bu tapmacanı ağac timsalında açaq. Kök varsa, gövdə tutacaq, qol-budaq atacaq. Kökdünən, gövdə-bu gün, qol-budaq sabahdır. Bu günün şeiri ağacın gövdəsidir. Bütün zamanlarda müasir şeir gövdə olub. Gövdə ağaca necə lazımsa, şeir də cəmiyyətə eləcə gərəkdir. Şeir də ağaclar kimi bir-birinə bənzəməyəndi. Sərti də olur, kövrəyi də!".

Bu fikirləri F.Sadığın ədəbi kredosu da hesab etmək olar. Onu haqlı olaraq Rəsul Rza ədəbi məktəbinin nümayəndəsi hesab edirlər. Deyim ki, R.Rza təkcə modern şair deyildi, həm də ənənəyə bağlı bir şairdi və biz bunu F.Sadığın poeziyasında da görə bilərik.

***Bir ağız Osvensim fəryadı,***
***Bir tutam yaslı bulud.***
***Sonra günəşin addım səsləri,***
***Sonra tufan qabağı sükut.***
***Dalğaların parçalanması,***
***Qayaların ovulması.***
***Bir də Dədə Qorqud.***
***Sonra Kərəm yanğısı,***
***Sonra çilik-çilik sınan su.***
***Tanış çiçək qoxusu,***
***Doğma yurd.***

***Sonra da bir sual;***
***Saçları qarışmış dünyamızı,***
***Raket ucları darayacaqmı;***
***Yoxsa kotan dişləri?***
***Sonra Rodenin fikirli insanı.***
***Nigarançılıq.***
***Sonra da sonuncu akkord-***
***Ümid!***

Böyük bəstəkarımız Qara Qarayevin musiqisinə heyranlıqdan yaranan bu şeir-təəssürat o zaman tez-tez səslənən assosiativ şeirin ən parlaq nümunələrindən idi. Göründüyü kimi, burada ustad Rəsul Rza "Rənglər"inin təsiri (forma baxımından) aydınca sezilirdi. Amma təsir təqlidə, yamsılamaya çevrilməyib. F.Sadığın onlarla şeirində, həmçinin "Dənizə axan küçə", "Ağ cığır", "Səhrada tənha buruq", "Buz nənni", "Balıqçı və su pərisi", "Sevgi yağışı" lirik poemalarında 60-70-ci illərin yenilikçi poeziyasının səciyyəvi xüsusiyyətlərini görürük. O illərdə poeziyada yaranan bu yeni meyl və tendensiyaları müxtəlif tərzdə və müxtəlif yöndə izah edirdilər, bunu Qərb poeziyasının təsiri kimi yozanlar da vardı, ənənəvi şeirin əks modeli kimi şərhə çalışanlar da... Amma F.Sadığın adını çəkdiyim bu poemalarında milliliyə, şeirimizin qaynaqlarına bağlılıq güclü idi. Nağılvari təhkiyə tərzi, qeyri-adi və gözlənilməz assosiasiyalar, qəfil bənzətmələr, metaforalar "Balıqçı və su pərisi" poemasında daha bariz nəzərə çarpırdı. Litva əfsanəsi əsasında qələmə alan bu poemada bir balıqçı ilə əfsanəvi su pərisinin



sevgisindən söz açılır. Ümumiyyətlə, F.Sadıq öz poetik fərdiyyəti etibarilə bir çərçivəyə sığan şair deyildi.

### *Onun poetik təfəkkürü*

Azərbaycan şeirinin bütün formalarında və vəznlərində öz gücünü göstərməyə qadirdir. F.Sadıq ikiliklər yazır, iki misrada bəlkə də bir böyük şeirdə ifadə etmək istədiyi fikrin kiçik modelini yaradır, bir çox poemalarını lirik miniatürlər şəklində qələmə alır, "kəsə sözlər"lə qısa, amma fikir yüklü şeirlər yaradır, "Ədəbiyyat nəzəriyyəsi" silsiləsilə Qələmin, Qəsidənin, Rübainin, Qəzəlin klassik və müasir dövrdə necə anlaşıldığını izah edir, yeri gəldikcə folklor formalarına üz tutur və bu məqamda onun bir fikrini xatırlayırıq: "Kök-el ədəbiyyatıdır, ağız ədəbiyyatıdır, folklor tükənməz çeşmədir. Yazılı ədəbiyyat bu çeşmədən su içməsə solar. Minillik ədəbiyyatımızın korifeyləri Nizamidən başlamış bu günlərədək bütün klassiklərimiz folklora baş əymiş, folklordan bəhrələnmiş, folkloru sevməyi bizə vəsiyyət etmişlər... Mən də bu bulaqdan su içmişəm". F.Sadığın bir neçə poeması məhz əfsanə və rəvayətlər əsasında qələmə alınıb, miniatür şeirlərində də o, xalqdan gələn məsəllərə, atalar sözlərinə, deyimlərə müraciət edir, yeni, orijinal fikir söyləməyə cəhd edir. Bircə misal:

*Oğlağa quzu demədi o Dədə Qorqud.*
*Gödəyə uzun demədi o Dədə Qorqud.*
*Bütövə dilim demədi o Dədə Qorqud.*
*Nadana alim demədi o Dədə Qorqud.*
*Kim dedi bəs?!*

Fikrət Sadığın poeziyası əzəldən yaşadığımız gerçəkliklə, müasir həyatla, cəmiyyətdə, dünyada baş verən ictimai-siyasi hadisələrlə bağlı olub və əgər onun şeir və poemalarının tematik mənzərəsi bir xəritəyə sığışdırılsa, burada xalqımızın keçdiyi tarixi yolun şöhrətli, şanlı sənələri, ağrılı-acılı illəri, dahilərinin, söz xiridarlarının, qəhrəmanlarının xatirəsi öz əksini tapacaq. Xüsusilə, XX əsrin mürəkkəb və təzadlı mənzərələri də onun poeziyasında bədii tarix kimi diqqəti cəlb edir. Onun 90-cı illərdə və 2000-ci illərin əvvəllərində yazdığı şeirlər Mirzə Ələkbər Sabir ruhunun Fikrət Sadıq poeziyasında ehya olunması kimi anlaşılmalıdır. Budur, şair yol boyunca düzülən yaraşıqlı villaların qarşısından keçir və bu mənzərə belə bir şeirin yaranmasına səbəb olur:

***Yol boyunca düzülən bu***
***Uca imarətlər kimindir?***
***Sizindir, qardaş, sizin!***
***Bəs bu giley-güzarlar,***
***bu dərdlər kimindir?***
***Bizimdir, qardaş, bizim.***

***Bu möhtəşəm villaların***
***Dörd bir yanı daş qaladır.***
***Yaxşı bənna-bu qalanın***
***daşlarından***
***Dörd qaçqına ev qaraldar.***
***O qalalar kimindir bala?***
***Sizindir, qardaş, sizin!***
***Başımıza gələn bəlalar***
***Yan-yana düzülsə əgər,***
***Elə belə qala olar,***
***O bəlalar kimindir,***
***Bizimdir, qardaş, bizim!***

***Biz elə bilirdik ki,***
***Göydəki Allah bizimdir.***
***Allah da sizinmiş qardaş,***
***Siz azsınız-biz çoxuq,***
***Siz varsınız-biz yoxuq!***

Dövrün, zamanın, bu günün reallıqlarıdır bu mənzərə. Və bir də bu misralar: Çörəklə sınağa çəkiblər xalqı, qarışıq salıblar haqla nahaqqı. Bu yazıq camaat neyləsin axı, Vətən satılanda-kitab satılmaz.

Bu yazıda mən ustad şairimiz Rəsul Rzanın bir fikrini xatırlatmaq istəyirəm:

"Fikrət poeziyasının başqa xüsusiyyətləri ondadır ki, həqiqətən milli, yeni bütün köklərdə xalqın tarixi həyat tərzi, onun poetik və estetik görüşləri, folklor obrazları aləmi ilə bağlı olan, Azərbayjan dilinin nəfəsini, ətrini və ritmini təbiiliklə və dərindən duyan şair olmaqla bərabər, o, müəyyən coğrafi məkanda, məhəlli və mənəvi məhdudluqda qalmır"

Bəli, Fikrət Sadıq da doxsan yaşına qədəm qoydu. Amma onun doxsan yaşını özü yox, dostları, oxucuları qeyd edəcək.

**Oğlu - tanınmış yazıçı-publisist Orxan, şair qızı Aysel qeyd edəcək. Hamımız deyəcəyik ki, Ruhun şad olsun, Fikrət Sadıq!**